**UOT 73**

**Rəfiqə Quliyeva**
**Azərbaycan Milli İncəsənət Muzeyinin**
**Elmi-kütləvi işlər şöbəsinin müdri**
**AZ 1001, Bakı, Niyazi küç.11-13**
**E-mail:** rafigaguliyeva23@gmail.com

# HEYKƏLTƏRAŞ MÜNƏVVƏR RZAYEVANIN YARATDIĞI PORTRET ƏSƏRLƏRİNİN BƏDİİ İFADƏ VASİTƏSİ

Məqalə Azərbaycan heykəltəraşı Münəvvər Rzayevanın yaradıcılığının tədqiqinə həsr olunmuşdur. Məqalədə M.Rzayevanın heykəltəraş kimi formalaşma dövrünə toxunulur, bioqrafiyasının mühüm tarixləri araşdırılır, Moskva Dövlət Rəssamlıq Akademiyasında təhsil aldığı illərdə yaradıcılıq dəsti-xəttinin müəyyənləşməsi, fərdi bədii təfəkkürünün aydınlaşması məsələləri öyrənilir. Heykəltəraşın müxtəlif janrların spesifik cəhətlərinə, qarşılıqlı əlaqəsinə və təsirinə, plastik ifadənin faktura və struktur xüsusiyyətlərinə münasibəti də məqalədə tədqiq edilir.

**Açar sözlər:** Heykəl, portret, obraz, bədii, xarakter, şair.

Heykəltəraş Münəvvər Rzayeva bir heykəltəraş kimi formalaşma dövrü 1960-cı illərin əvvəllərinə təsadüf edir. Əməkdar rəssam əslən şuşalı olan Münəvvər Rzayeva (1929-2004) xalça ustası Məcid kişinin ailəsində böyüyüb. 1950-ci ildə Ə.Əzimzadə adına rəssamlıq məktəbini, 1956-cı ildə isə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq Akademiyasının heykəltəraşlıq fakültəsini bitirmişdir.

Moskva Dövlət Rəssamlıq Akademiyasında təhsil alması Münəvvər Rzayeva nəinki yaradıcılıq dəsti-xəttinin müəyyənləşməsinə, həm də fərdi bədii təfəkkürünün aydınlaşmasına kömək edir. Burada heykəltəraş müxtəlif janrların spesifik cəhətlərinə, qarşılıqlı əlaqəsinə və təsirinə, plastik ifadənin faktura və struktur xüsusiyyətlərinə daha dərindən bələd olur. O, dərsdən sonra vaxtının çoxunu Ermitaj və Rus muzeyində keçirir. Ermitajda saxlanan Roma portretləri, qotikanın, İntibahın dövrünün nümunələri onun mənəvi aləminin daha da zənginləşməsinə böyük təsir göstərir. Sonralar o, İtalyanın zəngin, antik memarlıq və heykəltəraşlıq mərkəzlərində yaradıcılıq təcrübəsi keçdi, dünya incəsənətinin əvvəllər albomlardan və kinofilmlərdən tanıdığı bir çox nəhənglərini əyani olaraq gördü və bu da gənc heykəltəraşın yaddaşında güclü iz buraxaraq onun təfəkkürünü zənginləşdirdi.Münəvvər Rzayeva erkən işlərində məzmunun əlamətlərini və personajların həcm-məkan xarakterliyini tutmağın müəllif metoduna məxsus səciyyəvi cəhətləri görünür. Professional sənətkarlığa yiyələnmə yeni mövzuların, obrazların dərin fərdi dünyagörüşünün təsdiqi sahəsindəki axtarışlarla paralel aparılırdı. Təhsil aldığı zaman Münəvvər bir çox sərgilərdə yaratdığı büstləri ilə təmsil olunaraq yüksək qiymətlərə layiq görülmüşdür.

Münəvvər Rzayeva həyatı boyu yüzə qədər müxtəlif səpkili sənət əsəri yaratmış, onlar paytaxtda, ölkənin digər şəhərləri və rayon mərkəzlərində "məskunlaşmış". Bu

maraqlı sənətçi 1943-cü ildən müxtəlif sərgilərin iştirakçısı olub. 1953-cü ildən Rəssamlıq İttifaqının üzvü idi. Mədəniyyət Nazirliyinin Dövlət Komissiyasının üzvü olmuş, AMEA Nizami adına Ədəbiyyat muzeyində bərpaçı rəssam kimi fəaliyyət göstərmiş, neçə-neçə heykəltəraşlıq əsərinin ömrünə ömür əlavə etmişdir. Onun əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində, AMEA Nizami adına Milli Ədəbiyyat Muzeyində, Ordubadi muzeyində, Siyəzən mədəniyyət evində, Bədii Fondda saxlanılır. Heykəltəraşlıqda portret janrı həmişə müasir nəslin vacib, duyulan və anlaşılıqlı bir sahəsi olmuş, gələcək nəsil üçün isə keçmiş dövrü barədə əsaslı bədii sənəd rolunu oynamışdı. Bu əsərlərdə tarixi şəxsiyyətlərin obrazları canlandırılmaqla yanaşı, konkret dövrün həmin insanlar haqqında olan təsəvvürləri də öz əksini tapmışdır. Başqa sözlə desək, zamanın sosial-siyasi problemləri bu obrazların təsvirində canlandırılırdı. Odur ki, biz yarım əsirə yaxın bir dövr keçməsinə baxmayaraq, M.Rzayeva o illərdə yaratdığı portretlərdə qəhrəman insanların, cəfakeş, cəsur neftçilərin, xalqın görkəmli ziyalılarının layiqli obrazları ilə tanış oluruq.

Bu illərdə heykəltəraşın yaratdığı işlərdə son dərəcə dəqiqlik, bütün incəlikləri ifadə etmək səyi müşahidə edilir, portretlə model arasında olan oxşarlıq bəzən tamaşaçıda cizgilərin dürüstlüyünə heyranlıq oyatsa da , adətən, bu əsərlərdə hələlik bir qədər quruluq özünü göstərirdi.

Heykəltəraşın ilk yaratdığı işlərində həll edilməsi vacib olan məsələlər hələ çox məhduddurlar. Xarici görkəmin lakonizmi ilə obrazın çox çeşidliliyinin bütövlülüyü onun kamil işlərinin bədii quruluşlarında birdən-birə öz əksini tapmayıb. Yaradıcılığında ədiblərə xüsusi məhəbbətlə yanaşmışdır. Hüseyn Cavid, Sergey Yesenin, Nəriman Nərimanov, Mikayıl Müşfiq, Nazim Hikmətin büstləri onun yaradıcı ömründə ayrıca yer tutur.

Kiçik yaşlarından Münəvvər Rzayeva oyuncaqlarını belə özü gildən düzəldərdi. Gildən yapdığı samovarı, qab-qacağı düzüb, saatlarla oyun yoldaşları ilə çay dəsgahı qurardı. Onda heç kimin ağlına gəlməzdi ki, gillə oynamağı xoşlayan bu qız Azərbaycanın ilk monumentalçı qadın heykəltəraşı olacaq. Heç Münəvvərin özü də sidqini gilə salmaqda bir məna görmürdü. Hətta Ə.Əzimzadə adına Rəssamlıq məktəbinin birinci kursunda dekanın "kim skulpturaya getmək istəyir" sualını "kim fizkulturaya getmək istəyir" kimi başa düşüb əlini qaldırmışdı. O zaman heykəltəraşlıq emalatxanası kimi istifadə olunan indiki Kamera və Orqan musiqisi zalına heykəltəraş Pyotr Sabsayın yanına göndəriləndə də orda ilk növbədə idman nəticələrinin olmadığına təəccüblənmişdi. Beləliklə tale özü onu tovlayıb heykəltəraşlıq sənətinə gətirmişdir. Nahaq deməmişlər, bəzən sənət özü insanı seçir. Heykəltəraşlıq kimi ağır bir sənətin seçdiyi qız Münəvvər Məcid qızı Rzayeva bu işin yükünü daim ləyaqətlə çiyinlərində daşımışdır. 50-ci illərdə Moskvada Surikov adına Bədaye Akademiyasında təhsil alarkən, o, məşhur heykəltəraş Nikolay Vasilyeviç Tomskinin emalatxanasında çalışmışdır. Münəvvər Rzayeva hələ yaradıcılıq yoluna təzə qədəm qoyurdu ki, şair Nazim hikmətin büstünü hazırlamağı qərara alır. Sənətində hələ püxtələşməmiş olsa da gənc heykəltəraş qız böyük şairin mübariz ruhunu heykəldə dəqiq vermiş, onu lirik duyğularıyla yanaşı, sanki bir döyüşçü timsalında təsvir etmişdi. Həm də görünür ilk gəncliyində hərbi dəniz məktəbində təhsil almış şairin qamətinə çökmüş hərbiçi möhkəmliyi, dəyanəti istedadlı tələbənin fəhmindən yayınmamışdır. Bəlkə də Münəvvər Rzayeva uşaqlıqdan öz daxilində qərar tutmuş səbatı, əzmi görmüşdü şairdə, odur ki, onun obrazını da müsəlləh bir əsgər kimi

yaratmışdı. Yəqin bu iki sənətkarı sonralar ata-övlad münasibətlərində birləşdirən də təkcə Münəvvər xanımın adının Nazim hikmətin yeganə övladı Mehmetin anasının adından olması deyil, xasiyyətlərinin xüsusiyyəti idi. Bütün yaradıcılıq imkanlarından, hətta Nazim hikmət tərəfindən ona təklif edilmiş məşhur heykəltəraş Erziyanın emalatxanasından da imtina edərək, Bakıya öz yaradıcılıq yolunu tapmağa qayıdan Münəvvər Rzayevanın bütün həyat yolu onun əzmkarlığına dəlalət edir. 60-cı illərin N.S.Xruşşovun yumşaltma siyasəti incəsənətdə, ədəbiyyatda canlanmaya, yeni meyarların yaranmasına səbəb olmuşdu. Uzun illər haqsız repressiyalara məruz qalmış insanların hüquqları bərpa olunmağa başlamışdı. heç təsadüfi deyil ki, 60-cı illərin qabaqcıl sənətkarlar nəslinə aid olan heykəltəraş Münəvvər Rzayevanın da qəhrəmanlarının çoxu bu və ya digər mənada təqiblərə, sürgünlərə məruz qalmış insanlar idi. O, bir-birinin ardınca Cənubi Azərbaycana sürgün edilmiş şairə Pərvin Ehtizami, Sibir düşərgələrində məhv olmuş Hüseyn Cavid, işgəncələrlə məhv edilmiş Mikayıl Müşviq, Ayna Sultanova və başqalarının obrazlarını yaradır.

Tanınmış sənətşünas, əməkdar incəsənət xadimi Ziyadxan Əliyev Münəvvər Rzayev yaradıcılığı haqqında yazdığı məqalədə qeyd etmişdir ki, “məhz Azərbaycanda yeganə heykəltəraşdır ki, Bakı şəhərində üç heykəltəraşlıq abidəsi ucaldılmış və indiyə kimidə qorunub saxlanmaqda davam etdirildiyini vurğulamışdır”. [1, s. 3]. Tanışlıq üçün deyək ki, o, dünyaya Bakıda göz açmışdı. Əgər əslən şuşalı olan məşhur xalça ustası Məcid kişinin qızının uşaq vaxtı plastilini əlindən yerə qoymaması heç kəsi narahat etmirdisə, onun plastilinə və gilə olan marağının öləzimək əvəzinə durmadan güclənməsi artıq ata ilə yanaşı, digər yaxınlarını da qayğılandırmaqda idi. Münəvvərdən başqa, ətrafındakılardan heç kəs heykəltəraşlığı qız sənəti hesab etmirdi. Amma bu balaca qız niyyətini reallaşdırmaqda, inadkarlıq göstərməkdə idi. Odur ki, onun məşhur «Əzimzadə məktəbi»ni bitirməsini (1948), bunun ardınca Moskvaya yollanıb oradakı çox nüfuzlu V.İ.Surikov adına Rəssamlıq İnstitutunda təhsil almasını (1956) hamı maraq dolu təəccüblə izləyirdi. Gənc heykəltəraşın Moskvada oxuya-oxuya Bakıda keçirilən müxtəlif sərgilərdə iştirakı da yaxınlarına qürur gətirməklə, tədricən artıq bir qanunauyğunluq kimi qəbul edilirdi. Həmin illərdə peşə seçimində yanılmadığını doğmalarına və özgələrə sübut etməyə çalışan Münəvvər xanım «Əlaçı» və «Alpinist qız» əsərlərinin ardınca hamının, xüsusilə də mütəxəssislərin diqqətini cəlb edən «Nazim Hikmətin portreti» (1955) əsərini yaradır. O vaxtlar Moskvada sığınacaq tapan Nazim Hikmətlə tanışlıq onun üçün az sonra ata-övlad münasibətinə çevrilir və o, təhsilini başa vurana kimi burada onun qayğısını görür. Bu ünsiyyətin artıq tarixliləşən yadigarı isə heç şübhəsiz, gənc heykəltəraşın böyük məhəbbətlə yaratdığı portret olur. Davamlı olaraq şairin hərəkətlərinə, davranışına göz qoyan Münəvvər Rzayeva onun çox yaddaqalan, obrazının mahiyyətini, daxili enerjisini sərgilənən sadə və eyni zamanda çox real biçimli portretini yaradır.

Təhsil sonrası Bakıya qayıdan gənc heykəltəraş müxtəlif miqyaslı sərgilərdə iştirak etməklə yanaşı, bir çox rəsmi dövlət sifarişlərini də yerinə yetirir. Onun gözəl portret yaratmaq istedadı N.Gəncəvi adına Azərbaycan Milli Ədəbiyyatı Muzeyi rəhbərliyinin diqqətini cəlb edir. Odur ki, 1958-ci ildən başlayaraq, davamlı olaraq ona daimi ekspozisiyanı bəzəyəcək məşhur tarixi simaların obrazlarının yaradılması sifariş olunur və o, muzeylə bu yöndəki əməkdaşlığını ömrünün sonuna qədər davam etdirir. Bu gün muzeyin kolleksiyasında qorunan «İmadəddin Nəsimi» (1958, ağac), «Əbülhəsən Bəhmənyar» (1959, mərmər), «Molla Pənah Vaqif» (1960, mərmər), «Hüseyn Cavid»

(1961, mərmər), «Sergey Yesenin» (1962, ağac), «Mikayıl Müşfiq» (1968, kəc), «Məshəti Gəncəvi» (1980, qalvanika), «Məshəti Gəncəvi və Əmir Əhməd» (1995, qalvanika), «Şah İsmayıl Xətai» (1997, gips), «Həsən bəy Zərdabi» (1998, kəc) bu əhəmiyyətli əməkdaşlığın bədii-plastik görüntüləridir. Hər bir heykəlin uğurunu onun kompozisiya və plastik forma - biçimi ilə yanaşı, həm də material seçimi şərtləndirir desək, yanılmarıq. Bu baxımdan Münəvvər xanımın çox fərqli təbləri olan söz xiridarlarının obrazları üçün seçdiyi materiallar, tətbiq etdiyi yapma manerası çox məntiqli və obrazın psixologiyasının açımına duyulası kömək edən fərdi xüsusiyyətdir. Odur ki, H.Cavid, Ə.Bəhmənyar, M.P.Vaqif lirikası və fəlsəfəsi mərmərdə, İ.Nəsimi qüruru ağacda, M.Gəncəvi incəliyi qalvanikada, H.Zərdabi dəyanəti isə kəcdə daha duyulandır. Yaradıcılığının ilk illərində yaratdığı portretlər sırasında onun gənc geoloq-alim Xudu Məmmədova (1959) həsr etdiyi əsər də yüksək bədii-estetik məziyyəti, materiala münasibətilə diqqət çəkir. Bazalt daşından yonulmuş portretdə müəllif bədii ümumiləşdirməyə səy göstərməklə yanaşı, düşüncəyə qapılmış alimə xas olan səciyyəvi psixoloji cəhətləri bədii görüntüyə çevirməyə nail olmuşdur. Az sonra M.Rzayeva özünün portretlə ətraf mühitə təsir etmək istedadını geniş park və meydanlara çıxarılan əsərlərində də nümayiş etdirə bildi. Ona paytaxtda ucaldılacaq Mikayıl Müşfiqin heykəlinin yaradılması həvalə olunanda da o, kompozisiya həlli kimi portret janrını seçdi.

Bu gün Münəvvər Rzayeva sənətinin el məhəbbəti, dünyəvi şöhrət qazanmasının kökündə həm də milli ənənələrə bu qədər yeni və gözlənilməz görkəm, çoxqatlı məna – məzmun verə bilməsi durur. Onun milli keyfiyyətləri özündə əks etdirən heykəl obrazları ənənələrimizə və digər mənəvi qaynaqlarımıza yaradıcı və analitik münasibəti zahiri – effekt mahiyyəti daşımayıb, özünü bədii şərhin mahiyyətində, kompozisiya həllinin, baxış nöqtəsinin, onların miqyasının, fəza-məkanda necəliyində hifz edir. Əgər heykəltəraşın əlli illik yaradıcılığının nəticələrinə diqqət yetirməli olsaq, deməliyik ki, o, yaradıcılığının ilk on ilini əhatə edən dövründə başlıca olaraq təhsil illərində qazandığı bədii–texniki vərdişləri təhlil edib özününküləşdirməyə çalışıb.

**Ədəbiyyat:**

1. Əliyev Ziyadxan, Xəlilov Aslan. Azərbaycan İncəsənəti. II-III hissələr. Bakı 2011, s. 142.
2. İbrahimov T. Sənətə bağlı ürək: Heykəltəraş M.Rzayeva haqqında. Mədəni-maarif işi, 1974, №3, s. 56-71.
3. İsmayılova Ş. Tarixin şahidləri: (Heykəltəraş M.Rzayeva haqqında) Qobustan, 1978, №2, s. 58-60.
4. Həsənov N. Həmişə axtarışda: (Heykəltəraş M.Rzayeva haqqında) Sovet kəndi, 1969, 29 May.

**Кулиева Рафига Саявуш кызы**

**Средства художественного выражения**
**портретных работ скульптора Мунаввар Рзаевой**

**Резюме**

Статья посвящена исследованию творчества азербайджанского скульптора Мунаввар Рзаевой. Статья затрагивает скульптурный период творчества М. Рзаевой, затрагивает важные даты ее биографии, исследует вопросы определения

творческих установок и выяснения индивидуального художественного мышления во время ее учебы в Московской Государственной Академии Художеств. В статье также исследовано отношение скульптора к особенностям, взаимодействиям и эффектам различных жанров, текстурным и структурным особенностям пластического выражения.

**Ключевые слова**: скульптура, портрет, образ, художественная литература, персонаж, поэт.

**Rafiga Guliyeva**

**The means of artistic expression of the portraits created by the sculptor Munavvar Rzayeva**

**Summary**

The article is devoted to the investigation of the activity of Azerbaijani sculptor Munavvar Rzayeva. In the article the problems such as the period of formation of Munavvar Rzayeva as a sculptor, the important dates of her biography, determining the hand writing of her years of study at the Moscow State Academy of Fine Arts, clarifying her personal artistic thinking, etc. are studied. The sculptor's attitude to the specific features, the interaction and influence of different genres, texture and structural features of plastic expression are also studied in the article.

**Keywords:** monument, portrait, image, artistic, character, poet

**Məqalənin redaksiyaya daxil olma tarixi: 04.06.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.06.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 05.07.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrəelmlər doktoru, professor Cəmilə Həsənzadə**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**